***İsa Şuşalı***

## *Xocalının keçiyində dayanmısan!*

Sabir, səni xoş ümidlə,
Yada salır Xocalılar!
Əllərində əl atəşin,
Qəlblərində qəlb odun var!
Xocalılar alqışının,
Atəşiylə qızınmısan!
Polis rəisi kimi özün,
Hörmətini qazanmısan!
Etmisən yad həyatını,
Qayğınla şad həyatını.
Sən narahat həyatının,
Keşiyində dayanmısan!
Sözün təpər olub cana,
Məlhəm kimi hopub qana!
Duaçına dönən ana,
Keşiyində dayanmısan!
Əzmi olub naəlacın
Xoş qayğına ehtiyacın!
Qardaşına həsrət bacı.
Keşiyində dayanmısan!
Köklənib qəm üstə neyin,
Güc sanırsan el birliyin!
Ağcaqqalın, ağbirçəyin,
Keşiyində dayanmısan!
Qayğılaşıb bağça - barın,
Var dostlara etibarın,
Oğlu şəhid ataların,
Keşiyində dayanmısan!
Könül açan nəvələrin,
Ümid saçan nəvələrin,
Baba qucan nəvələrin,
Keşiyində dayanmısan!
Həsrət çağlı Xocalılar,
Haqq soraqlı Xocalılar,
Sinə dağlı Xocalılar
Keşiyində dayanmısan!
Alışan qan ocaqları,
Sönəcəkdir, deyirsən sən!
Xocalılar Xocalıya,
Dönəcəkdir, deyirsən sən!
Millət yada tutsa divan,
Ayrılmazdı yurd dağından!
Sevincimiz dərd dağından.

***Şuşalı İ. Xocalının keşiyində dayanmısan : Xocalıda şücaət göstərmiş Sabir Məmmədova həsr olunmuş şeir // Şuşalı İ. Unudulmaz abidədir bu kitab. – Bakı : Nurlan, 2009. – S.68-***